*“Metafizika” Journal*
***2022, vol 5, issue 2, serial 18, pp.37-50***

**UOT:** 316.612
**KBT:** 60.54

# Seçim anlayışı, onun fərdi və ictimai cəhətləri

**Zahid Əliyev**[*]

**Abstrakt.** Sosiologiyada seçim problemi insanların həyatının bütün sahələrinə aid edilən vacib bir prosesdir. Bu elmin nəzəriyyəsinə görə, seçim həm həyata keçirilmə prosesi, həm də onun nəticələri baxımından sosiologiya elminin əsas spesifik səciyyələrini özündə ehtiva edərək, ümumiyyətlə fərdlərin, şəxslərin ayrı-ayrı qrupları üçün ümumi xassə olmaq, bununla yanaşı xassə olaraq ictimai münasibətlərin bu və ya digər xassələrinin informasiyasının nəticəsidir. Fərdlərin qarşılıqlı vəziyyətinin ifadəsi olmaq fərdlər və onların qrupları arasında münasibətlərin məzmunu və xarakteri onların ictimai strukturlarda tutduqları yerdən və yerinə yetirdikləri roldan asılıdır.Fərdlərin və onların müxtəlif qruplarının münasibətləri çoxaspektli olub, həm onların bir-birinə, həm cəmiyyətdə öz vəziyyətinə, ictimai həyatdakı hadisə və proseslərinə münasibətlərini əks etdirir.

Məqalədə bəşəriyyətin ümdə problemlərindən olan seçimin mahiyyəti, fərdi və ictimai əlamətləri barədə sosiologiya elmində mövcud olan bəzi nəzəriyyələr öz əksini tapıb. Bu araşdırmaların əsas elmi nəticələri onların müəlliflərinin yaşadıqları vaxt və məkandan asılı olaraq, cürbəcür həll yollarına həsr edildiyi ayrıca qısaldılmış bəndlərlə təhlil edilmişdir. Ümumi bir həll yolu olmasa da, seçimin həm fərdlərdən, həm də yaşadıqları mühitdən birbaşa asılı olması günümüzədək qüvvədə olması aksioma olaraq qalmaqdadır. Sözsüz ki, qloballaşan dünyada daha geniş seçim imkanları yaranır və bu imkanlardan daha çox gənclər bəhrələnə bilirlər.

**Açar sözlər:** seçimin mahiyyəti, gənclər və seçim problemi, araşdırmalarda seçimin xüsusiyyətləri

## 1.Giriş

Müasir dünyada həyatın axarı, sosial dəyişikliklərin görünməmiş sürətlə baş verməsi bəşəriyyəti, o cümlədən hər zaman cəmiyyətin əsas

[*] AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı, Beynəlxalq Tədris və Elmin İnkişafı Akademiyasının “Sosial- psixologiya” bölməsinin rəhbəri və müəllimi; Bakı, Azərbaycan
E-mail: zahidaliyev061@gmail.com
https://orcid.org/0000-0002-7340-2962

**Məqaləyə istinad:** Əliyev, Z. [2022]. Seçim anlayışı, onun fərdi və ictimai cəhətləri. *“Metafizika” jurnalı, 5*(2), səh.37-50.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 23.02.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 03.03.2022*
*Çapa qəbul edilmişdir: 03.06.2022*

təkanverici qüvvəsi olan gəncləri demək olar ki, «təcili» seçim qarşısında qoyur.

Sosiologiyada seçim problemi insanların həyatının bütün sahələrinə aid edilən vacib bir prosesdir. Bu elmin nəzəriyyəsinə görə, seçim həm həyata keçirilmə prosesi, həm də onun nəticələri baxımından sosiologiya elminin əsas spesifik səciyyələrini özündə ehtiva edərək, ümumiyyətlə fərdlərin, şəxslərin ayrı-ayrı qrupları üçün ümumi xassə olmaq, bununla yanaşı xassə olaraq ictimai münasibətlərin bu və ya digər xassələrinin informasiyası nəticəsidir. Fərdlərin qarşılıqlı vəziyyətinin ifadəsi olmaq fərdlər və onların qrupları arasında münasibətlərin məzmunu və xarakteri onların ictimai strukturlarda tutduqları yerdən və yerinə yetirdikləri roldan asılıdır.Fərdlərin və onların müxtəlif qruplarının münasibətləri çoxaspektli olub, həm onların bir-birinə, həm cəmiyyətdə öz vəziyyətinə, ictimai həyatdakı hadisə və proseslərinə münasibətlərini əks etdirir.

Beləliklə, fərdlərin birgə fəaliyyətinin nəticəsi olaraq seçim fərdlərin ünsiyyətdə və qarşılıqlı fəaliyyətində təzahür edir, Qarşılıqlı fəaliyyət prosesi fərdlərin bir-birinə təsir göstərməsinə şərait yaradır, ictimai münasibətlərin müxtəlif xassələrinin inteqrasiya olunmasına kömək edir [1, s.12].

Sosiologiyada insan hər şeydən əvvəl şəxsiyyət kimi nəzərdən keçirilərək iki aspektdə müəyyənləşdirilir. Əvvəla, fərdi cəmiyyət, birlik, qrup, təbəqə və sinfin üzvü qismində sosial əhəmiyyətli keyfiyyətlərin möhkəm sabit sistem kimi, ikinci isə şüurlu, iradi fəaliyyətin azad, məsuliyyətli subyekti, həmin sosial keyfiyyətlərin fərdi daşıyıcısı mənasında [1, s.34].

**2.Şəxsiyyət anlayışı**

Şəxsiyyət anlayışı biososial varlıq olan insanın ancaq sosial tərəfini ifadə edir. Şəxsiyyət yüksək zəkalığı, öz hərəkət və davranışı üçün məsuliyyət hissini, şəxsi həyati və başqa yüksək mənəvi keyfiyyətləri özündə təcəssüm etdirən insandır [1, s.55].

Gənclər cəmiyyətin sosial strukturunun əsas elementlərindən biri olaraq, əsas aparıcı qüvvə hesab olunur. Ümumiyyətlə, cəmiyyətin sosial strukturunun əsas elementlərinə siniflər, şəhər və kənd əhalisi, əqli və fiziki əmək nümayəndələri, sosial- demoqrafik qrupları- gəncləri, qadınları, kişiləri, yaşlı nəsli, milli birlikləri (millətləri, xalqları, etnik qrupları) və s. əhatə edir [1, s.72].

Gənclərin seçim problemi onların bəlli bir yaş həddinə çatdıqda məşğuliyyət məsələsinin həllində yaranmağa başlayır. Belə ki, dünya sosioloqlarının ümumi fikrinə görə insanın nisbi xoşbəxtliyi onun düzgün ixtisas seçimi dövründən başlayır. Əmək məşğuliyyəti, əməyin məzmununun

ara sıra dəyişdirilməsinin bir çox səbəbləri vardır. «*Əməyin məzmununun dəyişdirilməsinin çıxış bazası- əmək alətlərinin təkmilləşdirilməsidir, çünki bu əmək bölgüsünün dəyişdirilməsinə aparıb çıxarır. Bu isə öz növbəsində, işçilərin peşə-ixtisas tərkibini müəyyən edir. Peşə-ixtisas tərkibinin dəyişdirilməsi, həm ayrı-ayrı kollektivlərin, həm də ərazinin, sahələrin, bütövlükdə cəmiyyətin sosial strukturların dəyişdirilməsinə, işçilərin müxtəlif qruplarının dəyişdirilməsinə aparır*» [1, s.139].

Beləliklə, seçim anlayışının mahiyyəti, elmdə müəyyən qədər öyrənilsə də, gənclərin seçim problemi və onların həlli yolları empirik və praktik tərəfdən demək olar ki, araşdırılmayıb. Ayrıca qeyd etmək lazımdır ki, insanların həyatında sosioloji-psixoloji fenomen olaraq seçim anlayışının elmi nəzəriyyəsi olmadan, onun empirikliyi öyrənilə bilməz.

Problemin araşdırma səviyyəsini anlamaq üçün öncə bu problemin elmi ədəbiyyatda həllinə nəzər salmaq lazımdır. Seçim ümumi elmi anlamda mütəxəssislər tərəfindən cürbəcür alternativ variantların müqayisəsi nəticəsində subyektin, yəni şəxsin qərarı kimi qəbul edilir. Konkret olaraq, qeyd etmək lazımdır ki, sosiologiya elmində seçim həyat tərzi və səviyyəsi kimi insanın öz mahiyyətinin seçimi, həyatının inkişafı və mənası kimi mümkün məsələləri əhatə edir [6; 18, s.46].

Bu anlayışın izahı əcnəbi, o cümlədən rus elmi ədəbiyyatında cürbəcür yanaşmalar və cərəyanlar çərçivəsində araşdırılıb. Rus alimlərindən Kaneman D., Tversiki A. həmçinin dünya şöhrətli əcnəbi filosof Z.Freydin bəzi əsərlərində insanların seçim xüsusiyyətlərinin əsasında onların psixoseksual inkişafı, valideynləri ilə qarşılıqlı münasibətləri, müqavimət üçün daxilən hazırladıqları mexanizmlər, sublimasiyaya meylilik kimi xüsusiyyətlər durduğunu qeyd edilir. [10, s.31-42].

Sosiologiya elminin analitik araşdırmaları ilə məşğul olan digər bir qrup alimlər seçim anlayışının gənc yaşlarda izahını insanların nevroz xəstəliyinə meylli olması, yaxud da özlərinə məhəbbət simvolu seçərkən daha çox həyata keçirmələri ilə əlaqələndirirlər [11, s.192; 14, s.114-115; 17, s.97-110].

Beləliklə, seçim gənclərin fizioloji quruluşu və şəxsi həyat tarixçəsi ilə əlaqədar olaraq, onların intellektual inkişafı adətən az olan bir proses olaraq, insanın bütün gələcək həyatına birbaşa təsir göstərən mühüm prosesdir.

Digər bir əcnəbi alim K.Xorninin sosiologiya elmində yaratmış olduğu cərəyana əsasən «seçim» gəncin bəlli bir yaşda daxili narahatçılığının qarşısını almaq və yaxud da dayandırmaq üçün əksər hallarda:

- başqalarının nəzər-nöqtəsinin, yaxud da təsirinin altına düşməklə;

- özünün düşündüyü reallıqdan uzaqda inkişafı proqramı ilə;

- seçimdən ümumiyyətlə yan keçməklə;

- özünə lazım olan hər şeyin və hər kəsin əldə edilməsi üçün bütün üsullardan yararlanmaqla;

- seçim əvəzinə daha çox maddi yığıma meyllilikə kimi çıxış yollarından istifadə etməklə baş verir [29, s.281]. Alimin maraqlı elmi nəticələrindən biri də seçim probleminin həllində gənclərin əksər hallarda analarının həyatına, karyerinə üstünlük verməsi ilə əlaqədardır [29, s.281]. Demək, alimin fikirlərinə görə, seçim problemi qlobal miqyas ölçüsündə fiziologiyadan, həm də patoloji olaraq cinslərdən asılıdır. Normal insanın gənc yaşlarında seçimi onun bütün həyat boyu məqsədli şəkildə davamlı yerinə yetirilir. Bu hərəkət fərdin çox erkən zamandan cəmiyyətə ictimai faydalı insan kimi yaşamını düzənləyir. Qeyri-normal, yaxud da qeyri-kafi sosial adaptasiya, əksinə insanların erkən yaşlarından özünə qüvəni formalaşdırma prosesinə mane olur; bununla da gənc yaşlarından insanlar özlərində kompleks formalaşdırırlar. Bununla belə, insan öz daxili qabiliyyətlərinə uyğun əməkdaşlıq yolunu tapa bilirsə, özü-özünə müvafiq motivasiya- həvəslənmə şəraiti yaratmağı bacarır; müəyyən uğurlar əldə edərək, seçimin düzgün olduğunu anlayıb, həyatını müvəffəqiyyətlə davam edə bilər; demək cəmiyyət üçün bacarıqlı, lazımlı, faydalı fərdə çevrilə bilər.

Belə ki, hər bir fiziki cəhətdən sağlam şəxs müəyyən bir yaşdan sonra, şəxsi həyatın bir mühüm istiqamətlərini seçərək, öz məqsədlərinə çatmaq üçün həm şəxsi keyfiyyətlərini nəzərə alır, həm də yaxınlarının, ailəsinin, yaşadığı mühitin təsirini ciddi olaraq analiz edib uğurlara gedib çata bilir [2. s.288; 3. s.45].

Demək, seçim hər bir insanın, həm də bütün bəşəriyyətin həyatında qlobal bir problem olaraq, ona uğur gətirə biləcək motivlərdən daha çox asılıdır.

Digər bir fərqli nəzəriyyənin müəllifi olan K.Q.Yunq kollektiv psixologiya barədə yaratmış olduğu elmi nəzəriyyədə insanın şəxsi qabiliyyəti ilə seçim təfəkkürünü bir-birindən ayırmışdı [30, s.148-152].

O, bu məsələnin həllində 2 əsas tipik qavrama növünü əsas obyekt kimi araşdıraraq, introversiya və ekstraversiya terminlərinin elmi izahını göstərmişdi. Hər iki halda 4 koqnitiv prosesin həyata keçirilməsində 8 şəxsiyyət tipi konkretləşdirilmişdir:

1. Gözləmə mövqeyini tutaraq müşahidə edən insanlar;
2. Seçim zamanı adaptasiya məsələsinə əsas yer verən fərdlər;
3. Daha güclü hisslər yaradan prosesin seçimin əsasında əldə edilməsinə üstünlük verən fərdlər;

*“Metafizika” Journal*
***2022, vol 5, issue 2, serial 18, pp.37-50***

4. İntuitiv olaraq, daxilən yaratmış olduğu obrazın reallaşdırılması və xəyallarının həyata keçirilməsi zamanı gələcək seçimində daha çox estetikaya üstünlük verənlər;

5. Şəxsi ideyaların həyata keçirilməsi üçün cürbəcür vasitələrlə seçim etmək;

6. Məcbur olaraq, cəmiyyətin və ya kiminsə tələbinə görə seçim etmək yolunu tutanlar;

7. Dərin daxili hisslərin, o cümlədən reallıqdan uzaq düşüncələrin həyata keçirilməsi kimi seçim növünü əsas götürənlər;

8. Obyektiv olaraq yaranan vəziyyətə görə seçim etmək və ya dəyişməyə hər zaman hazır olan fərdlər [15, s.304; 30, s.167].

Göstərilən nəzəriyyələri yekunlaşdıraraq, qeyd etmək olar ki, seçim şəxsiyyətin sağlam düşüncəsinin lazımlı elementidir. Hər bir gənc həyatının ayrı-ayrı zamanlarında seçim vəziyyətinə gəldikdə, əsasən şəxsi təhlükəsizliyi və gələcək inkişafı arasında qalır. Bu zaman hər iki vəziyyətlə əlaqədar seçim düzgün ola bilər, yəni həm özünü qoruma, həm də inkişafının reallaşdırılması baxımdan; yəni vacib olan insanın ilk öncə və daha vacib bu iki mühüm məsələdən hansını seçməsidir. Şəxsi təhlükəsizliyini əsas kimi seçərək, tələbatının bir qismini yerinə yetirə bilməyəcəyini ağılla dərk edən şəxs öz məqsədlərinə çatmaq üçün daha uzun, daha əziyyətli yolu seçə bilir; yaxud əvvəlcə öz şəxsi inkişafını tez həyata keçirməyə üstünlük verərək, həyatını müəyyən təhlükələrə ata bilir.

Hər iki halda, tələsik verilən qərar insanı çox tez sıradan çıxara bilər; yəni gənc həyatının problemlərinin həlli yolunu seçərkən bir növ öz eqosunun qurbanı olaraq, tezliklə həm bu tərzdə, həm də təhlükəsizlik mələsini həll edə bilmədən cəmiyyətdə öz yerini tutmaya bilər.

Əlbəttə istisna kimi alternativ variantlar varsa, gənclər daha ağılla hərəkət edərək, balansı qoruya bilər və daha maksimal seçimi yerinə yetirə bilərlər. Bəzən insan gənc yaşlarından başlayaraq. yetkin çağlarına qədər alternativ variantlar arasında özüylə, eqosu ilə mübarizə aparmaq məcburiyyətində qalır. Bu isə böyük uğur gətirmir. İnsanda bir növ həyatı boyu özünə qarşı yarımçıqlıq sindromu yaradır.

Bununla da özünü realizə edə bilməyən, ətrafında olan hər kəsə küskün olan neqativ bir tipaj formalaşır ki, bu da cəmiyyətdə ziyanlı ünsürlərin, neqativ mühitin yaranmasına gətirib çıxarır.

## 3.Gənclərin seçim anlayışı

Əslində hər bir insan gənc yaşlarında seçimin o qədər də geniş olmadığını dərk etsə, bunun üçün onun bir ömür vaxtı olmadığını anlasa, bəlkə də belə neqativ şəxsiyyətlər formalaşmaz. Psixoloq C.Atkinson,

Q.Xekhauhzen kimi məşhur mütəxəssislərin sosioloji araşdırmalarına görə son yüzillikdə şəxsiyyətlər seçimi daha çox uğur qazana biləcəkləri sahəyə yönəldirlər. Burada əsas konsept empirik olaraq, hesabladıqları gələcək gəlirlərdir. Bununla da seçim- vəziyyətdən asılı olaraq, gənclərin motivasiyası- həvəslərindən və özləri haqqında olan fikirlərindən asılıdır [28, s.24].

Alman alimi E.Bernin bu problem üzrə yaratdığı nəzəriyyəsinin əsasında valideyn-uşaqlar arasında olan münasibət durur. Belə ki, bəzən valideynlər öz övladlarına uşaqlıq yaşlarında (5-6 yaşlarında) qəti olaraq, özləri tərəfindən seçilmiş bir obrazı şüuruna yerləşdirməyə başlayırlar. Burada valideynlərin hər ikisinin, yaxud da birinin şəxsiyyəti, həyat təcrübəsi, cəmiyyətdə tutduğu mövqe uşaq üçün əsas nümunə kimi göstərilir [5, s.507]. Burada valideynin arzusu və övladının bu istəyi həyata keçirmək məcburiyyəti gənclərin həyatının əsas seçimi etməsinə mane olur.

Xüsusi qeyd etmək lazımdır ki, bəzən müəyyən yaşdan sonra övladlar valideynlərinin onlar üçün hazırladıqları ön seçim ssenarisindən imtina edir, tam əksinə onların tərbiyəsinə və təbliğatına uyğun olmayan bir seçim edirlər. Bu zaman valideynlər və övladlar arasında ilk ciddi konflikt başlanır. Əksər hallarda gənclər daha mütərəqqi addımlar ataraq, öz seçimlərinə uyğun həyatlarını planlaşdırmaq üçün ciddi işlər görməyə başlayırlar.

Bu cür gənclərin seçimi bir çox alimlər tərəfindən seçim, iradə azadlığı, daha yaxşı seçimə doğru dəyişmə imkanının qazanılması kimi dəyərləndirilir. Şəxsiyyətin sağlam inkişafında müstəqil seçim hər şeydən önəmli olaraq, cəmiyyətlərin inkişafında çox mühüm rol oynayır [Маслоу А., 1997: Леонтьев А.Н., 1975; Леонтьев А.Н., 1971; Леонтьев Д.А., Пилипко Н.В., 1995: 21]. Seçimin tam müstəqil, şəffaf olması gəncləri şəxsiyyət kimi stereotiplərsiz, çərçivələrsiz inkişaf etdirə bilir; yaxud əksinə hansısa bir qeyri-real dünyaya can ataraq, bir ömür boyu mövcud olmayan “divara” söykənərək, qorxu, təlaş içində çürüməsinəapara bilər. [18, s.56-89; 30, s.244].

Cəmiyyət gənclərə seçim və iradə azadlığı, daha yaxşı seçimə doğru dəyişmə imkanının qazanılması üçün şərait yaratmalıdır. Bunun nəticəsində şəxsiyyətin sağlam inkişafında müstəqil seçim hər şeydən önəmli olaraq, cəmiyyətlərin inkişafında çox müüm rol oynayır [30, s.244].

Cəmiyyət gənclərə seçim azadlığı verməlidir. Amma hər bir insan öz seçimini özü müəyyən edir. Seçimin subyektivliyi insanları azad edir.Gənclərin seçimində daha çox yüksəkliyə qalxmaq məsələsi onların həyatının ilkin gənclik illərində, 18-25 yaş arasında mühüm fəaliyyət göstərdikləri çevrədən, ətraf mühitin təsirindən həmçinin müasir dövrdə

informasiyalardan asılıdır, yəni sosial münasibətlər nə qədər əsas olsa da, onların daha geniş areala yayılması zamanı, əlaqələrin genişlənməsi və digər aspektlərə görə gənclər öz seçimlərini bəzən dəyişirlər. Əlbəttə burada texnologiyanın inkişafı, elmlərin inteqrasiyası, yeni fəaliyyət sahələrinin meydana gəlməsi ilə dünyada iqtisadi baxımından tələb və təklif məsələlərində çox tex zaman ərzində baş verən dəyişikliklər də nəzərə alınmalıdır. Rus alimlərindən V.F.Sagin bu aspektlərdən 3 seçim növünü irəli sürür: strateji, taktiki və situativ. Bu zaman gənclərin seçimində «istəyirəm», «bacarıram», «varımdır» kimi istəklər onu sosial çevrəyə tələb, arqumentlər ortaya qoyulur. Məqsədə çatmaq yolunda yeni seçimə uyğun təcrübənin olmaması və ya kifayət qədər olmaması bəzən neqativ seçimə gətirib çıxarır [22, s.101].

Gənclərin diqqət mərkəzində göstərilən yaş aralarında (18-25) insanın şüuru və davranışı onun cəmiyyətdə öz statusunun dəyişməsinə olan münasibəti, o cümlədən fərd kimi nəinki böyüdüyü mühiti, məkanı və çevrəni dəyişməsi, həmçinin müəyyən bir sosial qrupun tərkibinə daxil olaraq, fərqli baxışlardan, prinsiplərdən ibarət olan cəmiyyətlərə daxil olması hər üç mühitdə fərqli olur.

Bu və digər obyektiv, subyektiv səbəblərdən sosiologiyada aktual bir problem olan gənclərin seçim məsələsi, onun mahiyyəti öyrənilərkən, hər üç mühit növü- makro, mezo və mikro mühitin bütün şərtləri nəzərə alınmaqla, problemin həlli yollarını aydınlaşdırmaq mümkündür. Sosiologiyada inkişaf, genezis məsələsinin ən yeni konsepsiyalarına əsasən qeyd etmək lazımdır ki, günümüzdə insanın rolu daha çox sosial subyekt xarakteri daşıyır. Bu ciddi sosial subyektin birbaşa təsiri altında yeni makro, mezo və mikromühit yaradılmalıdır. [27, s.21].

**4.Makromühit, mikromühit**

Makromühit cəmiyyətdə bütövlükdə baş verən proseslərin insanların şüuruna və davranışına olan təsirini özündə ehtiva edir. Mikromühit, konkret sosial-iqtisadi formasiyalarda mövcud olan cəmiyyətlərdə insanların şüuruna, davranışına təsir edərək, müəyyən elementləri fərdlərin yaşadığı yerlərdə, çalışdığı kollektivlərdə, dincəlmə zamana yaradıcı və istehlakçılıq xüsusiyyətlərinə aid edilir.

Mikromühit fərdlərin əhatə olunduğu çevrədə şəxsiyyətlər arası münasibətlərin təsirinin davranışda özünü göstərməsi nəzərdə tutur [7, s.10-13; 13, s.18-25; 27, s.48-56].

Beləliklə, seçim fərdlər tərəfindən şüurlu və ya şüursuz, konkret sosial çevrəyə uyğun, əslində insanın özünün həyatını təyin etməsi, vəsaitlərini qeydə alması, bacarıq dərəcəsini öncədən ölçüb- biçmək,

həmçinin məqsədə çatmaq üçün düzgün vaxtın seçilməsi kimi önəmli faktlardan asılıdır. Bu kontekstdən digər bir rus sosioloqu A.A.Komlevin fikirləri maraqlıdır. Alim qeyd edir ki, seçim imkanların toplusudur. Seçim insanın potensial imkanlarına uyğun olaraq həyata keçirilməlidir; yəni seçim problemi gənclərin həyatının kəskin mövqeyinin yaranmasının təzahürü olaraq 3 əsas- eksistensial, mənəvi və sosial növlərə bölünür [12, s.41-51].

Gənclərin seçimi barədə qərar problemi sosiologiyada cürbəcür terminlərlə izah olunur:

1. Sensor formasında;
2. Şüurlu, yaxud qəti mühakimə nəticəsində;
3. Risk vəziyyətində.

Bəzi sosioloji araşdırmalarda risk vəziyyətinin seçim problemində əsasən xanımların həyatında baş verməsi qeyd edilir.

Gənclərin seçim məsələsinin əsas funksiyasını aşağıdakı hissələrlə ifadə etmək olar:

1. Özünü aktuallaşdırma ehtiyacı;
2. Özünəgüvən, özünə daxili hörmət ehtiyacı;
3. Sosial əlaqələr ehtiyacı;
4. Təhlükəsizlik ehtiyacı;
5. Fizioloji ehtiyac.

Bütün hallarda müasir gənclər seçim zamanı bütün bu ehtiyac meyarlarını diqqətlə araşdırır, əksər hallarda düzgün, optimal seçim edirlər.

Gənclərin seçiminin mahiyyətində başqa bir təsnifatlaşmada 3 əsas əlamət sosioloqlar tərəfindən dəqiqləşdirilib:

1. Öz ehtiyaclarını ödəməsi üçün;
2. Başqalarının (daha çox yaxınlarının, ailəsinin, dostlarının və s.) ehtiyaclarının ödənilməsi üçün;
3. Digərləri ilə birgə ehtiyacların ödənilməsi üçün öncədən düşünülmüş seçim [27, s.94].

Gənclərin seçimində motiv, ruhlanma, həvəslənmə önəmli yer tutaraq, bir neçə kriteriyaya görə cürbəcür şəkildə olur:

1. Şəxsin öz həyatı və inkişafı mühiti. Burada önəmli bioloji, fundamental, genioloji əhəmiyyət və birbaşa bununla əlaqəli olaraq şəxsin özünü aktuallaşdırmasında müstəqil motivləri olur.
2. Motivin sosial adekvatlığı, yəni ictimaiyyət tərəfindən qiymətləndirmə, həmçinin ümumi normativlər, arzuolunanlar və qadağan olunanlar kimi motivlər.
3. Şəxsi istehlak pilləsində olan motiv nümunələri. Bu zaman insanın inkişafı yalnız fizioloji tələbinin yerinə yetirilmə baxımından deyil, həm də

mənəvi zənginləşməyə yardım edir.

4. Konkret qərarların həyata keçirilməsi zamanı mənbə rolunu oynayan motiv. Bu zaman daxili motiv əsas yer tutur.

5. Şüura olan münasibət motivi hətta insan özü dərk etmədən belə güclü olur. Bu zaman motiv formaları hissələrlə, yaxud da arzu, can atma, meyllilik kimi özünü büruzə verə bilir.

Ümumiyyətlə, seçimin əsasında duran motiv-həvəs cürbəcür şəkildə özünü göstərir:

1. yaradıcılıq- yaxud hansısa işin, sənətin yerinə yetirilməsi prosesinin özünə olan maraq;
2. özünü realizə etmə ehtiyacı;
3. özünü təsdiq etmə ehtiyacı;
4. maddi stimula (pulla ödənilən) olan ehtiyacı;
5. sosial motiv, məsuliyyət, cəmiyyətə xeyirli insan olmaq arzusunun reallaşdırılması;
6. ideallara yaxınlaşmaq [9, s. 510].

Beləliklə, seçim probleminin mahiyyəti xüsusiyyətləri və ictimai funksiyaları kimi mühüm problemin nəzəri həllində metodiki cəhətdən bir neçə maraqlı üsullardan istifadə edərək, elmi nəticələr əldə etmək mümkündür.

Bu metodlardan fikrimizcə, aşağıdakıları qeyd və tövsiyə etmək olar:

1. Eksperimental- gənclərin ictimai həyatda aktivliyinə uyğun olaraq, seçim məsələsində optimal qərarların qəbul edilməsi və həyata keçirilməsi prosesində eksperimentallıqdan istifadə;

2. Təbii-sosial mühitin tələbinə uyğun seçim etmək. Burada yaş məsələləri önəmli yer tutur. Məsələn, məktəblilər, tələbələr, gənc həkimlər, müəllimlər əlbəttə ki, təhsillərini başa vurduqdan sonra seçimə başlayanlar və təbii olaraq, öz ixtisasları, yaxud ixtisas seçimindən başlayanlar. Yaş məsələsi ilə əlaqədar, ali təhsili bitirdikdən sonra ailənin qurulması, uşağın anadan olması, həmçinin müəyyən xəstəliklər ucbatından seçimdən qısa və ya uzun müddətli imtina etmək məsələsi təbii seçimin növünə aiddir.

Bütün hallarda seçimin yekunlaşması onun nəticələrinə görə insanlar tərəfindən qiymətləndirilir.

**5.Nəticə**

Beləliklə, seçim probleminin həllinə mütəxəssislər cürbəcür aspektlərdən yanaşaraq, fərqli və nisbətən mahiyyət etibari ilə oxşar nəzəriyyələr yaratmışlar. Ümumi bir həll yolu olmasa da, seçimin həm fərdlərdən, həm də yaşadıqları mühitdən birbaşa asılı olması günümüzədək qüvvədə olması aksioma olaraq qalmaqdadır. Sözsüz ki, qloballaşan dünyada

daha geniş seçim imkanları yaranır və bu imkanlardan daha çox gənclər bəhrələnə bilirlər.

## ƏDƏBİYYAT

1. *Sosiologiya.* (2006). (Ali məktəb üçün dərslik). Bakı: MBM, 295 s.
2. Адлер, А. (1997). *Наука жить.* Киев: Изд. Port-Royal, 288 с.
3. Асмолов, А. Г. (1986). *Психология индивидуальности. Методологические основы развития в историко- эмоциональном процессе.* М.: Изд. Московского университета, 93 с.
4. Бергер, П., & Лукман, Т. (1995). *Социальное конструирование реальности. Трактат по социологии знания.* М.: Медиум, 323 с.
5. Берн, А. (2000). *Игры, в которые играют люди. Люди, которые играют в игры.* Минск: Попурри, 507 с.
6. Губский, Е.Ф., Короблева, Г.В., & Лутченко, В.А. (Выбор). (1999). *Философский энциклопедический словарь*. М.: Инфра, 576 с.
7. Добреньков, В.И., Нечипуренко, В.Н., Попов, А.В. (2003). *Социология. Учебник* (ред. проф. Ю.Г. Волкова). Изд. 2-3 испр. и доп. М.: Гардарики, 512 с.
8. Забродин, Ю.М., Фришман, Е.З., & Шляхтин, Г.С. (1981). *Особенности решения сенсорных задач человеком.* М.: Наука, 200 с.
9. Ильин, Е.П. (2002). *Мотивация и мотивы.* Питер: Серия «Мастера психологии», СПб.: 512 с.
10. Канеман, Д., & Тверски, Е. (2003). Рациональный выбор, ценнобит и фрейм. *Психологический журнал,* 24 (4), с.31-42.
11. Ковалев, В.И. (1988). *Мотивы поведения и деятельности.* М.: Наука, 192 с.
12. Комлев, А.А. (2004). Жизненный выбор человека: виды и факторы влияния в аспекте возможностей. *Мир психологии,* (4), с.41-51.
13. Лапин, Н.И. (2009). *Общая социология*. М.: Высшая школа, 456 с.
14. Лапланш, Ж., Понталис, Ж. (2010). *Словарь по психоанализу*. М.: СП., 752 с.
15. Леонтьев, А.Н. (1975). *Деятельность- сознание- личность.* М.: Политиздат, 304 с.
16. Леонтьев, А.Н. (1971). *Потребности, мотивы, эмоции.* М.: 40 с.
17. Леонтьев, Д.А., & Пилипко, Н.В. (1995). Выбор как деятельность: личностные детерминанты и возможности формирования. *Вопросы психологии,* (1). с. 97-110. М.: Педагогика.
18. 18. Лоусон, Т., & Брод, Дж. (2000). Выбор. Социология: А-Я. Справочники. М.: Гранд, 608 с.

19. Маслоу, А. (1997). *Психология бытия*. М.: Ваклер, 304 с.
20. Парсонс, Т. (1998). *Система современных обществ*. М.: Изд. Аспект Пресс, 270 с.
21. Савина, Е.А., & Ванг, Х.Г. (2003). Выбор и принятие решения: риск и социальный контекст. *Психологический журнал*, 24 (5), с.23-33.
22. Сафин, В.Ф. (1986). *Психология самоопределения: учебное пособие.* Свердловск: Изд-во Свердловского гос-го ун-та, 141 с.
23. Сорокин, П.А. (1992). *Человек. Цивилизация. Общество*.(Общ. ред., сост. и предисл. А. Ю. Союмонов: (Пер. с англ. С. А. Сидоренко)). М.: Политиздат, 543 с.
24. Сосновский, Б.А. (1993). *Мотив и смысл: психолого-педагогическое исследование.* М.: Прометей, 200 с.
25. *Тезаурус социологии тематический словарь-справочник*, (2009). (под ред. Ж.Т.Тощенко). М.: *ЮНИТИ-ДАНА*, 487 с.
26. Тихомиров, О.К. (1969). *Структура мыслительной деятельности человека.* М.: Изд-во Московского государственного университета, 304 с.
27. Тощенко, Ж.Т. (2005). *Социология.* М.: Изд. *ЮНИТИ ДАНА*, 640
28. Хекхаузен, Х. (1986). Мотивация и деятельность. *Педагогика*, 2. М.: 392 с.
29. Хорни, К. (2002). *Самоанализ. Психология женщины. Новые пути в психоанализе.* СПб.: Питер, 480 с.
30. Юнг, К.Г. (2001). *Психологические типы.* Минск: Поппури, 480 с.

## Концепция выбора, его индивидуальные и общественные аспекты

**Захид Алиев***

---

* Диссертант Института философии и социологии НАНА, заведующий и преподаватель отдела «Социальной психологии» Международной академии развития образования и науки; Баку, Азербайджан
E-mail: zahidaliyev061@gmail.com
https://orcid.org/0000-0002-7340-2962

**Цитировать статью:** Алиев, З. [2022]. Концепция выбора, его индивидуальные и социальные аспекты. *Журнал «Metafizika», 5*(2), с.37-50.

***История статьи:***
*Статья поступила в редакцию: 23.02.2022*
*Отправлена на доработку: 03.03.2022*
*Принята для печати: 03.06.2022*

**Абстракт.** В социологии проблема выбора- важный процесс, затрагивающий все сферы жизни людей. Согласно теории этой науки, данный отбор включает в себя основные особенности социологии с точки зрения как процесса реализации, так и его результатов в целом, чтобы быть общим достоянием как индивидов, так и их групп. Содержание и характер отношений между людьми и их группами зависят от их места и роли в социальных структурах. Отношения между отдельными людьми и их различными группами многогранны, в зависимости от их отношения друг к другу, их положения в обществе, событий и процессов.

В статье отражены некоторые существенные в социологические теории о природе выбора, индивидуальных и социальных характеристиках, которые являются основными проблемами человечества. Здесь проанализированы основные научные результаты таких исследований с отдельными сокращенными абзацами, посвященными различным решениям в зависимости от времени и места проживания их авторов. Хотя общего решения не существует, остается аксиомой, что выбор напрямую зависит как от людей, так и от среды, в которой они живут. Конечно, в глобализированном мире существуют многие варианты, и все больше и больше молодых людей пользуються ими.

**Ключевые слова:** сущность выбора, проблемы выбора и молодежь, характеристика выбора в исследованиях

## The concept of choice, its individual and social aspects

**Zahid Aliyev**[*]

**Abstract.** In sociology, the problem of choice is an important process that affects all areas of people's lives. According to the theory of this science, selection includes the main specific features of sociology in terms of both the process of implementation and its results. is the result. The content and nature of the relationship between individuals and their groups depends on

[*] Dissertation candidate of the Institute of Philosophy and Sociology of ANAS, lecturer, and head of the Department of Social Psychology of the International Academy for the Development of Education and Science; Baku Azerbaijan
E-mail: zahidaliyev061@gmail.com
https://orcid.org/0000-0002-7340-2962
**To cite this article:** Aliyev, Z. [2022] The concept of choice, its individual and social aspects. *"Metafizika" journal, 5*(2), pp.37-50.

***Article history:***
*Received: 23.02.2022*
*Accepted: 03.06.2022*

their place in social structures and the role they play. reflects their relationship.

The article reflected some of the existing theories in sociology about the nature of choice, individual and social features, which are the main problems of mankind. The main scientific results of these studies were analyzed here with separate abbreviated paragraphs devoted to various solutions, depending on the time and place where their authors lived. Although there is no common solution, it remains an axiom that the choice depends directly on both individuals and the environment in which they live. Of course, in a globalizing world, there are more choices, and more and more young people are taking advantage of them.

**Keywords:** essence of choice, problems of choice and youth, characteristics of choice in research

## REFERENCES

1. *Sosiologiya.* (2006). (Ali mekteb uchun derslik). Baku: MBM, 295 p.
2. Adler, A. (1997). *Nauka zhit'.* Kiyev: Izd. Port-Royal, 288 p.
3. Asmolov, A. G. (1986). *Psikhologiya individual'nosti. Metodologicheskiye osnovy razvitiya v istoriko- emotsional'nom protsesse.* Moscow: Izd. Moskovskogo universiteta, 93 p.
4. Berger, P., & Lukman, T. (1995). *Sotsial'noye konstruirovaniye real'nosti. Traktat po sotsiologii znaniya.* Moscow: Medium, 323 p.
5. Bern, A. (2000). *Igry, v kotoryye igrayut lyudi. Lyudi, kotoryye igrayut v igry.* Minsk: Popurri, 507 p.
6. Gubskiy, Ye.F., Korobleva, G.V., & Lutchenko, V.A. (Vybor). (1999). *Filosofskiy entsiklopedicheskiy slovar'.* Moscow: Infra, 576 p.
7. Dobren'kov, V.I., Nechipurenko, V.N., Popov, A.V. (2003). *Sotsiologiya. Uchebnik* (red. prof. YU.G. Volkova). Izd. 2-3 ispr. i dop. Moscow: Gardariki, 512 p.
8. Zabrodin, YU.M., Frishman, Ye.Z., & Shlyakhtin, G.S. (1981). *Osobennosti resheniya sensornykh zadach chelovekom.* Moscow: Nauka, 200 p.
9. Il'in, Ye.P. (2002). *Motivatsiya i motivy. Piter: Seriya «Mastera psikhologii».* SPb.: 512 p.
10. Kaneman, D., & Tverski, Ye. (2003). Ratsional'nyy vybor, tsennobit i freym. *Psikhologicheskiy zhurnal,* 24 (4), pp.31-42.
11. Kovalev, V.I. (1988). *Motivy povedeniya i deyatel'nosti.* Moscow: Nauka, 192 p.

12. Komlev, A.A. (2004). Zhiznennyy vybor cheloveka: vidy i faktory vliyaniya v aspekte vozmozhnostey. *Mir psikhologii*, (4), pp.41-51.
13. Lapin, N.I. (2009). *Obshchaya sotsiologiya*. Moscow: Vysshaya shkola, 456 p.
14. Laplansh, ZH., Pontalis, ZH. (2010). *Slovar' po psikhoanalizu*. Moscow: SP., 752 p.
15. Leont'yev, A.N. (1975). *Deyatel'nost'- soznaniye- lichnost'.* Moscow: Politizdat, 304 p.
16. Leont'yev, A.N. (1971). *Potrebnosti, motivy, emotsii.* Moscow: 40 p.
17. Leont'yev, D.A., & Pilipko, N.V. (1995). Vybor kak deyatel'nost': lichnostnyye determinanty i vozmozhnosti formirovaniya. *Voprosy psikhologii,* (1). pp.97-110. Moscow: Pedagogika.
18. Louson, T., & Brod, Dzh. (2000). *Vybor. Sotsiologiya: A-YA. Spravochniki.* Moscow: Grand, 608 pp.
19. Maslou, A. (1997). *Psikhologiya bytiya.* Moscow: Vakler, 304 p.
20. Parsons, T. (1998). *Sistema sovremennykh obshchestv*. Moscow: Izd. Aspekt Press, 270 p.
21. Savina, Ye.A., & Vang, KH.G. (2003). Vybor i prinyatiye resheniya: risk i sotsial'nyy kontekst. *Psikhologicheskiy zhurnal,* 24 (5), pp.23-33.
22. Safin, V.F. (1986). *Psikhologiya samoopredeleniya: uchebnoye posobiye.* Sverdlovsk: Izd-vo Sverdlovskogo gos-go un-ta, 141 p.
23. Sorokin, P.A. (1992). *Chelovek. Tsivilizatsiya. Obshchestvo*.(Obshch. red., sost. i predisl. A. YU. Soyumonov: (Per. s angl. S. A. Sidorenko)). Moscow: Politizdat, 543 p.
24. Sosnovskiy, B.A. (1993). *Motiv i smysl: psikhologo-pedagogicheskoye issledovaniye.* Moscow: Prometey, 200 p.
25. *Tezaurus sotsiologii tematicheskiy slovar'-spravochnik,* (2009). (pod red. ZH.T.Toshchenko). Moscow: *YUNITI-DANA*, 487 p.
26. Tikhomirov, O.K. (1969). *Struktura myslitel'noy deyatel'nosti cheloveka.* Moscow: Izd-vo Moskovskogo gosudarstvennogo universiteta, 304 p.
27. Toshchenko, ZH.T. (2005). *Sotsiologiya*. Moscow: Izd. *YUNITI DANA,* 640 p.
28. Khekkhauzen, KH. (1986). *Motivatsiya i deyatel'nost'*. Pedagogika, 2. Moscow: 392 p.
29. Khorni, K. (2002). *Samoanaliz. Psikhologiya zhenshchiny. Novyye puti v psikhoanalize.* SPb.: Piter, 480 p.
30. Yung, K.G. (2001). *Psikhologicheskiye tipy*. Minsk: Poppuri, 480 p.